# Vətənə can verən zabit

**Dekabrın 22-də Şahbuz rayonunun Keçili kəndində 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan leytenant Mərhəmət Həmzəyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib. Tədbir Vətən uğrunda canından keçən igid oğullarımıza olan dərin ehtiramın, şəhid adının xalqımız üçün nə qədər müqəddəs olduğunun növbəti təzahürü olub.**



Anım mərasimində şəhidin ailə üzvləri, Vətən müharibəsi iştirakçıları, Şahbuz Rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayonun ağsaqqalları və ziyalıları, gənclər, hərbçilər, eləcə də şəhidin döyüş yoldaşları iştirak ediblər. Şəhidin məzarı başında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, qəhrəman Vətən övladının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra məzar üzərinə gül dəstələri düzülərək şəhidə dərin ehtiram nümayiş etdirilib.

Mərasimdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında reşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Qələbədən, torpaqlarımızın işğaldan azad edilməsindən, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasından bəhs ediblər. Bildirilib ki, bu tarixi Qələbə Mərhəmət Həmzəyev kimi igid zabitlərin canı və qanı bahasına əldə olunub.

Çıxışlarda şəhid leytenant Mərhəmət Həmzəyevin mənalı həyat yolu, Vətənə və hərbi anda sadiqliyi, döyüş meydanında göstərdiyi mərdlik və fədakarlıq xüsusi vurğulanıb. Qeyd olunub ki, o, yalnız peşəkar zabit deyil, həm də əsgərlərinə ata qayğısı ilə yanaşan, onları ölüm təhlükəsindən xilas etməyi öz canından üstün tutan əsl vətənpərvər idi.

Şəhidin ailə üzvləri dövlət tərəfindən şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Onlar vurğulayıblar ki, bu diqqət şəhid ailələrinə mənəvi dayaq olmaqla yanaşı, Vətən uğrunda canından keçən oğulların heç vaxt unudulmadığını sübut edir.

Tədbirin sonunda iştirakçılar üçün ehsan süfrəsi açılıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Xatırladaq ki, ailənin böyük oğlu olan Mərhəmət Həmzəyev 1997-ci il fevralın 24-də Şahbuz rayonunun Keçili kəndində anadan olub. Keçili kənd tam orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə sənədlərini verib. Qəbul imtahanlarından müvəffəqiyyətlə keçərək hərbi liseyin kursantı adını qazanan Mərhəmət Həmzəyev təlim-tərbiyəsi, intizamı və biliyi ilə müəllim və zabitlərinin rəğbətini qazanıb.

O, 2015-2019-cu illərdə Azərbaycan Ali Hərbi Məktəbində təhsil alaraq zabit kimi formalaşıb və məzun olduqdan sonra hərbi hissələrin birində xidmətə başlayıb. Xidmət dövründə daim nümunəvi zabit kimi seçilib.

Leytenant Mərhəmət Həmzəyev Vətən müharibəsində Murovdağ istiqamətində gedən ağır və şiddətli döyüşlərdə iştirak edib. Döyüş zamanı üç yaralı silahdaşını ölüm təhlükəsindən xilas edərək döyüş meydanından çıxaran igid zabit son anda düşmən gülləsinə tuş gələrək oktyabr ayında şəhidlik zirvəsinə yüksəlib. Uzun müddət itkinlər siyahısında olan qəhrəman şəhidimizin nəşi daha sonra tapılaraq dekabrın 22-də doğulub boya-başa çatdığı Keçili kəndində torpağa tapşırılıb.

Mərhəmət Həmzəyev həmçinin Tovuz döyüşlərinin də iştirakçısı olub. O, Vətən qarşısındakı xidmətlərinə və göstərdiyi şücaətə görə "Rəşadət" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qəhrəman şəhidimizin xatirəsini əbədiləşdirmək məqsədilə Keçili kəndində bulaq-abidə inşa olunub. Şəhid Mərhəmət Həmzəyevin xatirəsinə ucaldılan bu bulaq-abidədə Naxçıvandan olan bütün şəhidlərin fotolarının yer alması onun ümumxalq yaddaşında daim yaşadığının rəmzidir.

**Ruhu şad olsun!**

***Səhifəni hazırladı:***
***Bəxtiyar ƏLİYEV***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi***